# Azərbaycan Respublikasının Nazirlər Kabinetinin Qərarı

**№ 27** **Bakı şəhəri, 3 fevral 2017-ci il**

**“Kommersiya təşkilatlarının (kredit təşkilatlarından, sığorta şirkətlərindən, investisiya fondlarından və bu fondların idarəçilərindən, qeyri-dövlət (özəl) sosial fondlarından, qiymətli kağızları fond birjasında dövriyyədə olan hüquqi şəxslərdən başqa) ictimai əhəmiyyətli qurumlara aid edilməsi üçün meyar göstəricilərinin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 20 dfd fdfdfiyun tarixli 108 nömrəli qərarında dəyişikliklər edilməsi haqqında**

“Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2016-cı il 30 sentyabr tarixli 319-VQD nömrəli Qanununun tətbiqi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 18 noyabr tarixli 2444 nömrəli Sərəncamının 1.2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

“Kommersiya təşkilatlarının (kredit təşkilatlarından, sığorta şirkət-lərindən, investisiya fondlarından və bu fondların idarəçilərindən, qeyri-dövlət (özəl) sosial fondlarından, qiymətli kağızları fond birjasında dövriyyədə olan hüquqi şəxslərdən başqa) ictimai əhəmiyyətli qurumlara aid edilməsi üçün meyar göstəricilərinin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 20 iyun tarixli 108 nömrəli qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 6, maddə 544; 2010, № 4, maddə 362; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 30 dekabr tarixli 530 nömrəli qərarı) aşağıdakı dəyişikliklər edilsin:

1. Adına və 1-ci hissəsinə “qeyri-dövlət (özəl) sosial fondlarından,” sözlərindən sonra “qiymətli kağızlar bazarında lisenziyalaşdırılan şəxslərdən,” sözləri əlavə edilsin.

2. Həmin qərarla təsdiq edilmiş “Kommersiya təşkilatlarının (kredit təşkilatlarından, sığorta şirkətlərindən, investisiya fondlarından və bu fondların idarəçilərindən, qeyri-dövlət (özəl) sosial fondlarından, qiymətli kağızları fond birjasında dövriyyədə olan hüquqi şəxslərdən başqa) ictimai əhəmiyyətli qurumlara aid edilməsi üçün Meyar Göstəriciləri”nin adına “qeyri-dövlət (özəl) sosial fondlarından,” sözlərindən sonra “qiymətli kağızlar bazarında lisenziyalaşdırılan şəxslərdən,” sözləri əlavə edilsin.

***Artur RASİ-ZADƏ***
***Azərbaycan Respublikasının Baş naziri***